# İlham Qazızadə: “Rejissor milli sərvətdir... Lider rejissor olmasa, çətin ki, nəsə bir yenilik baş verə”



■ Könül Əliyeva
*teatrşünas*

**Qısa arayış:** *İlham Mustafa oğlu Qazızadə 1942-ci il dekabrın 2-də Bakı şəhərində anadan olub. 1964-cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib.*
*İ.Qazızadə 1965-ci ildən AMEA Memarlıq və İncəsənət İnstitutunda işləyir. 1996-2010-cu illər ərzində İnstitutun və İnstitutun Elmi Şurasının elmi katibi vəzifəsində çalışıb. O, eyni zamanda 1996-2000-ci və 2009-2010-cu illərdə İnstitutun nəzdində fəaliyyət göstərən Dissertasiya Şuralarının elmi katibi, 2004-2008-ci illər ərzində AR Prezidenti yanında Ali Attestasiya Komissiyasında Ekspert Şurasının elmi katibi olub. Hazırda Memarlıq və İncəsənət İnstitutu “Teatr, kino və televiziya” şöbəsinin aparıcı elmi işçisi və Mədəniyyət və İncəsənət Universitetinin müəllimidir.*
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent İlham Qazızadə “Azərbaycan İşçi Teatrı (1921-1932 - ci illər)” (Bakı, “Elm və təhsil”, 2012,160 səh.) kitabının, çoxsaylı elmi məqalənin müəllifi, teatr, kino və telviziyaya dair 10-dan artıq kitabın elmi redaktorudur. 1975-ci ildən Azərbaycan Teatr Xadimləri İttifaqının üzvüdür.*

**- İlham müəllim, teatrımızın bu günkü vəziyyətini teatrşünas-alim kimi necə qiymətləndirirsiniz?**

- Teatrımızın bu günkü vəziyyətindən təkcə mən yox, çoxları narazıdır.



Ona görə ki, teatrın baş rejissoru olmalıdır. Teatrın baş rejissoru yoxdursa, o teatr simasızdır. Bizim Akademik teatrın isə baş rejissoru yoxdur. Əgər mənə sual verilsəydi ki, keçən əsrin 38-ci ilindən 50-ci illərinin ortalarına kimi, 60-cı illərin əvvəllərindən 70-ci illərin ortalarına kimi teatrımızdan razısınızmı? Mən deyərdim ki, bəli. Çünki o dövrdə Adil İsgəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov kimi simalar var idi Azərbaycan teatrında. Bu şəxsiyyətlər XX əsr Azərbaycan teatrının simasını müəyyənləşdirirdilər. İndi elə bir sima yoxdur. Hətta təsəvvür edin ki, o dövrdə Ələsgər Şərifovun rus dramaturgiyası əsasında hazırladığı tamaşalara ruslar heyran qalırdı. Zəfər Nemətov, Məhərrəm Haşımov kimi rejissorlar var idi. Amma o qədər rejissorların içində cəmi üç nəfər - Adil İsgəndərov, Mehdi Məmmədov və Tofiq Kazımov Azərbaycan teatrının sütunları oldular. İndi belə rejissorlar yoxdur. Estoniyada Kaarel İrd var idi, Vanemuyne teatrının baş rejissoru idi. O dövrdə Tartu şəhərinin əhalisi də çox azdı, buna baxmayaraq teatrın iki səhnəsi var idi: kiçik səhnə, böyük səhnə. Bu teatrın hər iki səhnəsində salon 80 faiz dolu olurdu. Bizdə isə tamaşaçı salonunu doldura bilən rejissor yoxdur. Olanı da biz məhv edirik. Məsələn, Cənnət xanım (Səlimova-K.Ə.) Kamera teatrını yaratmışdı. Elə tamaşaları olurdu ki, yer tapılmırdı. Amaliya xanımın (Pənahova- K.Ə.) Bələdiyyə teatrı da qastrollara gedirdi, bəyənilirdi. Hüseynağa Atakişiyevi Şəkidən gətirdilər rəhmətlik Tofiq müəllimdən sonra qoydular Azdramaya baş rejissor. Pis də işləmədi. Qərəzli münasibətlə oradan da çıxartdılar. Gənclər Teatrını yaratdı. Bu teatr da ildə iki fəsil işləyirdi: yazda və payızda. O qədər şəraitsiz idi ki, qışda zalda dayanmaq olmurdu. Bir dəfə Xəyyam müəllimi (Mirzəzadə-K.Ə.) küçədə gördüm, titrədə-titrədə harasa tələsirdi. Dedim, - ay Xəyyam müəllim, hara belə? Dedi,- Gənclər teatrında donmuşam, gedirəm isinməyə (gülür). Hüseynağa rəhmətə gedəndən sonra o teatrı da bağladılar. Gəncləri də, Kamera teatrını da birləşdirdilər Gənc Tamaşaçılar Teatrına. Fərqli estetikaları olan teatrlar bir yerdə necə işləyə bilər?! Bircə, Yuğ teatrında qoyulan təməl hələ ki, qorunur, bu mənada teatr bir az fərqlənir. Ümumilikdə götürəndə isə, yenə də deyirəm, baş rejissoru olmayan teatrın siması yoxdur.

**- Bəs, belə olan vəziyyətdə, teatrımızı gələcəkdə nə gözləyir?**

- Mütləq və mütləq lider rejissor yetişməlidir. Lider rejissor olmasa, çətin ki, nəsə bir yenilik baş verə. Rejissor milli sərvətdir. Necə ki, Bülbülün, Ş.Ələkbərovanın, R.Behbudovun səsi milli sərvətdir, teatrda baş rejissor da milli sərvətdir. Milli sərvət ola biləcək rejissor yetişərsə, teatrımız da gələcəkdə öz simasını tapa bilər. Onu isə ancaq və ancaq mühit yetişdirə bilər.

**- Mühitin formalaşmasında az-çox teatrşünasların da payı var. Bəs, gənc teatrşünaslardan kimləri oxuyursunuz?**

- Belə başlamaq istərdim ki, yaxşı, ya pis, fərqi yoxdur, əgər teatr mövcud olacaqsa, onun tənqidçisi də mütləq olacaq. Gənc teatrşünasların da yetişməsi teatrın özündən asılıdır.

**- O zaman belə bir sual yaranır: proses tənqidi təyin etməlidir, yoxsa tənqid prosesi?**

- Mənə elə gəlir ki, proses tənqidi təyin edir. Məsələn, Türkmənistanın tənqidi mühiti ilə Estoniyanın tənqidi mühitini müqayisə etsək, olduqca fərqli mənzərə ilə qarşılaşarıq. Çünki onlarda proses də fərqli istiqamətdədir. Ona görə də proses təndiqi təyin edir, tənqid isə prosesi yönləndirməlidir. Proses həmişə öndədir.

**- Bəs, bu gün necədir vəziyyət, tənqid prosesə təsir edə bilir?**

- Bu gün proses çərçivələrə salınıbsa, tənqidin ona təsir etməsi müşkülə çevrilir.

**- Onda gələcəyi varmı tənqidin, necə görürsünüz tənqidin gələcəyini?**

- Sağlam teatr mühiti yetişərsə, obyektiv tənqid də olacaq. Əks təqdirdə, biz heç vaxt Pribaltika səviyyəsinə çata bilməyəcəyik.

**- 50 ildir, AMEA-da elmi fəaliyyətlə məşğulsunuz. Bu illər ərzində... kimlər gəldi, kimlər getdi?**

- Ooo... o qədər. Mən Qubad (Qasımov-K.Ə.) müəllimi də, Cəfər müəllimi də (Cəfərov-K.Ə.), Ədilə xanımı (Əliyeva-K.Ə.) da, İnqilab müəllimi (Kərimov-K.Ə.) də görmüşəm, onlarla birgə işləmişəm. Amma onlarla yanaşı, vaxtı ilə burada Tamilla Yusifbəyli, Ada Səfərova çalışırdı. A.Səfərovanın “Teatr və zaman” kitabı milli teatrşünaslığımızda ən dəyərli əsərlərdən biridir. Cəfər Cəfərov A.Səfərovanı bir teatrşünas kimi çox yüksək qiymətləndirirdi. Ona görə də Cəfər müəllim Mərkəzi Komitəyə gedəndə Məmməd Arif - o zaman Akademiyanın vitse-prezidenti idi,- ona zəng eləmişdi ki, şöbəyə kimi qoyaq. O da A.Səfərovanın adını demişdi. Hələ onda Ada müdafiə eləməmişdi. Ada təkcə SSRİ məkanında deyil, Avropa teatr məkanında gedən prosesi də bilirdi. Sonra Azər Sarabski var idi, Hüseynqulu Sarabskinin oğlu. Onun “Azərbaycan musiqili teatrının yaranması və inkişafı tarixi” kitabı çox dəyərli əsərlərdəndir. Ədilə Əliyeva hələm-hələm kimisə bəyənməzdi, amma həmişə deyirdi ki, Azərin o kitabında 3 doktorluq dissertasiyası var. Məsumə Rzayeva var idi - onun “Azərbaycanın sənədli kinosu” kitabı sanballı elmi araşdırmadır. Elə Ədilə Əliyevanın özü - böyük alim idi. Bir dəfə Tiflisdə olanda onun qrup yoldaşı Eteli Nikolayevnanı gördüm, dedim Ədilə xanım rəhmətə gedib, ağladı, dedi, siz bilirsiniz kimi itirmisiniz? Sonra dedi, o, canlı ensiklopediya idi, intəhası xarakteri bir az tünd idi. Lorkipanedze başda olmaqla, Gürcüstanın sayılıb seçilən sənət adamları Bakıya gəlmişdi, Ədilə xanım Gürcüstan teatrı haqqında elə faktlar səsləndirirdi ki, hamısı heyrətlə, bunları hardan bilirsiniz deyirdilər. Cəfər Cəfərov isə başqa aləm idi, həm alim kimi, həm də insan kimi bənzərsiz idi. Bir dəfə məşhur teatrşünas-alimlərdən biri (sonradan elmlər doktoru, professor da oldu) bir kitabını gətirib Cəfər müəllimə verdi ki, baxıb rəy bildirsin, oxudu, əli ilə itələdi bir qırağa, dedi, bu nağıldı, mən nağıla rəy vermirəm.

Cəfər müəllim Azərbaycan teatr tarixini 3 cilddə işləyəcəkdi, plan-prospekti də yazmışdı. Əfsuslar olsun ki, ömür vəfa etmədi...

**- Uzun illər AAK-da Ekspertlər Şurasının üzvü olmusunuz, İnstitutun elmi katibi işləmisiniz. Bu illər ərzində itirdikləriniz və qazandıqlarınız nə olub?**

- İtirdiklərim o oldu ki, elmi katib olduğum illərdə cəmi 1-2 elmi məqalədən başqa heç nə yaza bilmədim. Rəhmətlik Rasim müəllim (İnstitutun keçmiş direktoru Rasim Əfəndiyev-K.Ə.) də, Ərtegin müəllim (İnstitutun direktoru Ərtegin Salamzadə-K.Ə.) də dəfələrlə doktorluq mövzusu götürməyimi təklif etdilər. Amma vaxt tapa bilmədim. İndi isə, düşünürəm ki, gecdi...

Qazandıqlarım isə itirdiklərimdən çox olub. Ən əsası isə insanların əsl



üzünü tanımışam. Yaxşını pisdən seçməyi öyrənmişəm. İnsanların maskalarının altında nə olduğunu bilirəm.

**- Hazırda eyni zamanda ADMİU-da pedaqoji fəaliyyətlə məşğulsunuz. Sizcə, Azərbaycan teatrı yeni gələn nəslə bel bağlaya bilərmi?**

- Bəli, istedadlı tələbələr çoxdur. Həm rejissorlar, həm aktyorlar, həm də teatrşünaslar arasında bəyəndiyim, inandığım gənclər var. Sadəcə onlara etimad göstərilməlidir.

**- Teatrşünaslıq terminologiyasında “aktyor teatrı”, “rejissor erası” kimi təyinlər var. Bu prizmadan yanaşanda bu günün teatrı hansı təyinə uyğun gəlir?**

- Azərbaycan teatrı bütövlükdə hər bir dövrdə aktyor teatrı olub. Tofiq Kazımovun, Adil İsgəndərovun, Mehdi Məmmədovun dövründə rejissor teatrı demək olardı, amma o dövdə nəhəng aktyorlar var idi ki, tamaşaçılar məhz onlara görə teatra gəlirdi. Çağdaş dövrdə isə bircə rejissor teatrı var, o da Vaqif İbrahimoğlunun teatrı, Yuğ teatrı. O ki qaldı bu günün teatrını xarakterizə edən terminə, mən deyərdim ki, xaos teatrı.

**- İllərin təcrübəsindən hansı qənaətləri əldə etmisiniz?**

- Bayaqdan danışdıqlarım elə qənaətlərimdir də...

**Son illərin bəyəndiyiniz ən yaxşı tamaşaları hansılardır?**

- “Kölgə”, “21:15 qatarı”, “III Riçard”.

**P.S.** Bu il, daha doğrusu bu ay İlham müəllimin AMEA Memarlıq və İncəsənət İnstitutu “Teatr, kino və televiziya” şöbəsində çalışmağının 50 ili tamam olur. İlham müəllim, bu münasibətlə Sizi təbrik edir, can sağlığı və uğurlar arzulayırıq. Çox sağ olun ki, ömrünüzün 50 illini bu sənətə həsr etmisiniz!